Sumqayıt Regional Mədəniyyət İdarəsi
Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi kitabxana

Vaqif İbrahim

Biblioqrafik göstərici

Sumqayıt - 2020

KBT 91.9

Tərtibçi : **Zemfira Mirzəyeva**
Nazxanım Cəfərova

İxtisas redaktoru **:** **Yeganə Əhmədova**
Əməkdar mədəniyyət işçisi

Kompyuter tərtibatı **:** **Mətanət Əliyeva**

"**Vaqif İbrahim"** : biblioqrafik göstərici / tərt.ed.: Z. Mirzəyeva, N.Cəfərova; ixtisas red. və bur. məsul Y.Əhmədova; komp.tərt. M. Əliyeva; S.Vurğun adına Mərkəzi Kitabxana.- Sumqayıt, 2020.- 67 s.

Sumqayıt şəhər S. Vurğun adına Mərkəzi Kitabxananın "Sumqayıtın görkəmli şəxsləri" seriyasından tərtib etdiyi növbəti vəsait şair Vaqif İbrahimə həsr olunmuşdur. Göstəricidə şairin həyat və yaradıcılığı haqqında məlumatlar, həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxslərin onun haqqında söylədiyi fikirlər öz əksini tapmışdır. Vəsait Azərbaycan və rus dillərində tərtib olunmuşdur.

Tərtibçidən

S.Vurğun adına Mərkəzi kitabxananın tərtib etdiyi biblioqrafik göstərici Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan komsomolu mükafatı laureatı, M. Qorki adına Ümumittifaq mükafatı laureatı şair Vaqif İbrahimə həsr edilmişdir.

Biblioqrafik göstəricidə şairin həyat və yaradıcılığının 1962-ci ildən 1983-cü ilə qədər olan bir dövrü əhatə olunmuşdur. Biblioqrafik göstəricidə həmçinin şairin həyat və yaradıcılığının əsas tarixləri, dostlarının onun haqqında söylədiyi fikirlər öz əksini tapmışdır.

Vəsaitdə materiallar xronoloji qaydada,daxildə isə əlifba sırası ilə qruplaşdırılmışdır.

Biblioqrafik göstərici geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Vaqif İbrahimin həyat və yaradıcılığı

O, cəmi 38 il yaşadı.1945-ci ildə Şəkidə doğuldu, 1983-cü ildə Bakıdan Sumqayıta gedən avtobus qəza törətdi, o qəzadan bircə Vaqif İbrahim sağ çıxmadı. Həmin il oktyabrın 29-da Sumqayıtda dəfn olundu.

Yetmiş-səksəninci illərin ən populyar şairlərindən biri idi Vaqif İbrahim. Altmışıncı illərin sonlarında ədəbiyyata gəlmişdi, ilk kitabı - "Bu torpaqda doğulanlar" - 1970-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən işıq üzü görmüşdü. Onun qəfil ölümünə qədər Azərbaycan dilində dörd, rus dilində (Moskvada) bir kitabı çapdan çıxdı. "Oqonyok"da, "Literaturnaya qazeta"da, "Komsomolskaya pravda"da şeirləri dərc edildi. Rusca çıxan şeirlər kitabına görə Ümumittifaq Qorki mükafatına layiq görülmüşdü.

Sumqayıtda Əli Kərim adına gənclik poeziya klubu yaratmışdı. Komsomolun xətti ilə bir ədəbi dərnək də yaratmışdı. Son iş yeri "Göyərçin" jurnalı - məsul katib işləyirdi.

Vaqifin o dövrdə qələmə aldığı bir neçə komsomol ruhlu şeirləri də var və bu şeirlər istisna olunarsa, onun poeziyası öz müasirliyi, təzə söz demək iddiasında olan inadkarlığıyla seçilirdi.
Azərbaycan haqqında 1967-ci ildə yazdığı bir şeirə, bu şeirdəki təşbehlər, metaforalar o illərin şeiri üçün təzə idi:

Mən əbədi varam! - deyən
bir igiddir Azərbaycan!
Azadlığın dodağından qopan
odlu bir beytdir Azərbaycan!
Məsləkini başı üstə
bayraq kimi möhkəm tutan
milyon əldir Azərbaycan
Düşmənimin başı üstə
qəzəbindən daşa dönmüş
bir yumruqdur Azərbaycan!

Xalq şairi Sabir Rüstəmxanlı Vaqif İbrahimə həsr etdiyi "Ürəyinin şirəsini şeirlərinə qatan şair" yazısında onu Əli Kərimlə müqayisə edir. "Şeirlərinin sakit, amma tutumlu ifadə tərzində Əli Kərimin üslubu var idi". Doğrudur, çünki Vaqif İbrahim Əli Kərim kimi sözü canlandırmağı, ona dirilik verməyi, bədii təsvir əlvanlığı bəxş etməyi bacarırdı.

Bir şeirində ömrünün sanki qısa olacağına işarə edib yazırdı:

Tale-
Divar saatı...
hər gün,
hər an qızılmış.
Ürəyim-
Bu saatın
daşı kimi asılmış
Nə vaxtsa bir nöqtədə
Donub,
Qalacaq bu daş,
Donacaq heyrətindən:
Ömür bu qədər qısa
Bu qədər azdır nədən?

Onun bütün şeirlərində həyat eşqi, yaşamağın gözəlliyini duymaq nəşəsi diqqəti cəlb edir. Olsun ki, ilk sevgisi nakam olub, amma sevgi şeirlərində küskünlük, inciklik görünmürdü, bunlar məhəbbətin ülviliyinə inanan bir insanın nikbinliyindən doğurdu.. Vaqif İbrahimin məhəbbətdən, sevgidən, onun qüdrətindən, bir sözlə, həyat eşqindən don geymiş misralarında sızıltıya, ağlamağa, göz yaşına rast gəlmirik. "Mənim misralarım min-min əlimdir, Onları qəlbimdə sənsən bitirən. Ardınca boylanan min-min əllə mən, Səni səsləyirəm, de, eşidirsən?!".

Onun şeirləri ilk baxışda sakit, həyəcansız bir ovqat aşılayır, amma bir də görürsən ki, bu sakitlik çılğınlığa, hiss-həyəcan selinə döndü. "Bir gözəllik, aydınlıq Çilənib göyə, yerə". Dünya Vaqifin şeirləri 79-cu illərin yeni şeir axtarışlarıyla səsləşirdi. Sabir Rüstəmxanlı, Çingiz Əlioğlu, Nüsrət Kəsəmənli bu illərdə ən gözəl şeirlərini yazırdılar. Onlar ənənəvi şeirin vəzn və ümumən forma xüsusiyyətlərinə sadiq qalır, amma məzmunda, gerçəkliyə münasibətdə, həyat hadisələrinin təsvirində fərqli çalarlarla diqqəti cəlb edirdilər. Bu fikri eynən Vaqif İbrahim haqqında da söyləmək olar. Vaqif İbrahim "Şeirlərim" adlı bir şeirində yazırdı ki: "Beləcə ötüb-keçən günlərimin öz sözü, öz səsidir şeirlər. Bir az sevinc qarışıq, bir az kədər qarışıq, sıxılmış günlərimin şirəsidir şeirlər".

Otuz beş il keçir Vaqif İbrahimin ölümündən. Yaşasaydı, yetmiş üç yaşı olacaqdı. Amma Vaqif heç qırx yaşını görə bilmədi. Amma onu bizə unutdurmayan şeirləridir və bu şeirlərin ömrü Vaqifin öz ömründən də yaşlıdı...

Vaqif İbrahimin həyat və yaradıcılığının tarixi xronologiyası

1945	İbrahimov Vaqif Əliyar oğlu sentyabrın 30-da Şəki şəhərində doğulmuşdur.
1962	İlk şeiri Azərbaycan gəncləri qəzetində dərc edilmişdir.
1968	Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir.
1968-1970	Sumqayıt şəhər radio verilişləri redaksiyasında redaktor olmuşdur.
1970	"Ömür balladası" adlı kitabı çap olunmuşdur.
1970-1971	Əli Kərim adına Sumqayıt gənclik poeziya klubunun sədri vəzifəsində çalışmışdır.
1974	"Dünyanın keşiyində" adlı kitabı nəşr edilmişdir**.**
1971-1975	Sumqayıt şəhər radio verilişləri redaksiyasında məsul redaktor olmuşdur.
1975-1976	**"**Ulduz" jurnalı redaksiyasında ədəbi işçi işləmişdir.
1976	**"**Göyərçin" jurnalının məsul katibi olmuşdur.
1976	Azərbaycan komsomolu mükafatı laureatı adına layiq görülmüşdür.
1976	**"**Baykal- Amur magistralında**"** kitabına görə Lenin komsomolu mükafatı laureatı adına layiq görülmüşdür.
1978	Moskvanın "Molodaya qvardiya" nəşriyyatı "Fəsillər" şeir kitabını çapdan buraxmışdır.
1978	M. Qorki adına Ümumittifaq mükafatı laureatı adına layiq görülmüşdür.
1979	Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

1979	"Bu torpaqda doğulanlar" adlı kitabi işiq üzü görmüşdür.
1980-1983	Azərbaycan LKGİ MK nəzdində Gənc Yazıçıların Respublika ədəbi birliyinə rəhbərlik etmişdir.
1980-1983	Azərbaycan komsomolunun XXX-XXXXI qurultaylarında nümayəndə seçilmişdir.
1980-1983	Azərbaycan komsomolunun XXXI qurultayında respublika LKGİ MK-ya üzv seçilmişdir .
1981	"Mehribanlıq işiği" adlı kitabı nəşr edilmişdir.
1982	"Vaxtla üz-üzə" adlı kitabı çap edilmişdir.
1983	Faciəli surətdə həlak olmuş, Sumqayıtda dəfn edilmişdir.
1985	"Taleyimə yazılanlar" adlı kitabı nəşr edilib

Görkəmli şəxslər Vaqif İbrahim haqqında

Vaqif İbrahim xalqa, ədəbiyyata, mənəviyyata, gündəlik, təmtəraqsız, hay-küysüz xidmətin sirlərinə bələd idi, Vaqif idi.

Anar,
Xalq yazıçısı

Vaqifin yazılarında əsas cəhət budur ki, o heç zaman "tapdım" demir, daima axtarır, bu axtarışlarda tapıntılardan öyünmədiyi kimi, büdrəmələrdən də bədbin olmur.

Bəxtiyar Vahabzadə,
Xalq şairi

Vaqif İbrahim əsərləri respublikamızın hüdudlarından kənarda da neçə qardaş xalqın dilində səslənmiş, "Oqonyok", "Literaturnaya qazeta", "Komsomolskaya pravda" da dərc edilmişdir.

Cabir Novruz,
Xalq şairi

Orijinal olmayan, sönük, solğun misralardan uzaq qaçan, fikrini obrazlarda müəyyən sakitlik və təmkinlə deməyə çalışan Vaqifin şeirlərində həyata, dünyaya poetik bir baxış var, incə, kövrək bir insanın nəcib və gözəl duyğularının tərənnümü var.

Tofiq Mahmud,
şair, nasir

Vaqifin simasında biz şeirimizin azərbaycan ədəbiyyatına şöhrət gətirə biləcək bir yolunu, bir nümayəndəsini, bir şəxsiyyətini itirdik.

Sabir Rüstəmxanlı,
Xalq şairi

Vaqif İbrahimin ömrü, yaradıcılığı erkən yanıb, erkən sönən ulduzlara bənzəyir.

Tofiq Mütəllibov,
şair

Vaqif İbrahim ömrün magistral yoluna yenicə çıxmışdı, onu bu yolla aparan cığırları özü salmışdı, öz əlləri ilə, ilhamlı sözü-şeiri ilə, güclü şair fantaziyası ilə, nəhayət, əsl, işgüzar, fədakar ziyalı mədəniyyəti ilə... Bu yolun uzaq-uzaq üfüqləri yenicə-yenicə seçilməyə başlayırdı, sən demə, o uzaq- uzaq üfüqlər də Vaqifin əlçatmaz, ünyetməz arzuları imiş- ora da, arzulara da çata bilmədi-əlləri uzalı qaldı...

İsa İsmayılzadə,
şair

Vaqif İbrahim ülvi istəklər, dərin hisslər şairi idi. Onun misralarının ahəngində öz ürəyi döyünürdü. Duyğularının odu oxucunu riqqətə gətirirdi. İstəyini, məhəbbətini şeirlərində ünvanlaşdıran şair kədərində də böyük və nikbin idi.

Flora Xəlilzadə,
jurnalist

Arzumuz budur ki, Vaqif gənclik hissiyatının coşğunluğuna arxalanıb gələcəkdə söz yoxuşlarında, enişlərində, fikrin qızmar yayları, qütb qışlarında yorulub, yarı yolda qalmamaq üçün bütün həyatını, sevinc və kədərini poeziyaya versin, dünya ədəbiyyatının birincisi olsun.

Əli Kərim,
şair

Vaqif İbrahim qələmə aldığı mövzularla sadəcə olaraq seyrci, müşahidəçi kimi baxmır, cox vaxt özünü hadisələrin gur yerinə atır, sonra qələmə alır, çoxlarının yazmaq istədikləri aktual mövzuların bədii taleyi şairin qələmində orijinal bədii boyalarla həyat vəsiqəsi alır.

Əşrəf Veysəlli,
şair

Vaqif İbrahim Vətən haqqında elə yazır ki, adamda belə bir inam yaranır: onunçün Vətəndən müqəddəs, əziz bir şey yoxdur, ola bilməz! Təbiət haqqında elə həssaslıqla danışır ki, elə bilirsən, təbiətin gözəlliyinə tamaşa etməkdən, təbiətin qayğısına qalmaqdan başqa onun özgə qayğısı yoxdur.Yalnız ideal bir məhəbbətlə sevən, sevilən, yalnız özü ideal dost ola bilən bir adam məhəbbət, dostluq haqqında belə yaza bilər.

Feyzi Mustafayev,
yazıçı, publisist

Vaqif İbrahim 60-70-ci illərdə Azərbaycan poeziyasında öz dəst-xətti ilə, yeni düşüncə tərziylə seçilən şairlərdən idi.

Kənan Hacı,
şair, tərcüməçi

Vaqif İbrahim şairliklə ictimai fəaliyyəti-ziyalılığı özündə birləşdirən bir insan idi.

Bağır Bağırov,
geologiya-minerologiya elmləri doktoru, professor

İnam

Vaqifin yazılarında və şəxsiyyətində mənim xoşuma gələn əsas cəhət də budur ki, o, heç zaman "tapdım" demir, daima axtarır, bu axtarışlarda tapıntılardan öyünmədiyi kimi, büdrəmələrdən də bədbin olmur.

Şəxsiyyətdə təvazö, yaradıcılıqda təvazö və inam!..

"13-lər", "Qocaların görüşü", "Mənim sevgim", "İçərişəhər", "Maraq", "Radio dalğalarında" kimi şeirlərində fikir aydınlığı ilə bərabər, ifadə yeniliyi, obrazların səmimiliyi diqqətimizi cəlb edir:

Mənim sevgim
varlığımın təsdiqi,
tərəqqimin anası,
mənim uşaqlığımın,
dincliyimin
göz dağı;
Ömrümün
göy qurşağı.
Mənim sevgim –
kainatda işlətdiyim
ölçüb-biçib,
Həyatın
"Hə"sini almaq üçün
göndərdiyim elçim.

Bu şeirlərdə şair, dediklərinə bizi inandıra bilir. Ona görə ki, şair, oxucunu inandırmaq istədiyi şeylərə əvvəl özü inanır. Sonra yazır. Özü inandığına görə də bizi inandıra bilir. Bütün bunlara görə də duyğular səmimi, misralar təbiidir. Axı, sənət saxtalıqdan qorxur, uydurma sevmir.

Bəxtiyar Vahabzadə,
Xalq şairi

Şairin silahı sözdür

Vaqif İbrahimi oxuculara təqdim etməyə ehtiyac yoxdur. Onu şeirsevərlər yaxşı tanıyırlar. Vaqif poeziya aləminə 70-ci illərdə gəlmişdir. Onun Azərbaycan dilində "Ömür balladası", "Dünyanın keşiyində", "Baykal-Amur magistralında", "Bu torpaqda doğulanlar" kitabları, rus dilində isə tanınmış rus şairi Oleq Dmitriyevin tərcüməsində "Fəsillər" adlı şeirlər kitabı (1978-ci il, ""Molodaya qvardiya" nəşriyyatı) buraxılmışdır. Şeirsevərlər onu da bilirlər ki, Vaqif İbrahimin əsərləri respublikamızın hüdudlarından kənarda neçə qardaş xalqın dilində səslənmiş, "Oqonyok", "Literaturnaya qazeta", "Komsomolskaya pravda"da dərc edilmişdir. O, Moskvada və Sofiyada rus və bolqar dillərində çıxan "Drujba" jurnalının redaksiya heyətinin üzvüdür.

Bu ildən Ümumittifaq komsomolu Mərkəzi Komitəsi, SSRİ Yazıçılar İttifaqı və SSRİ Dövlət Nəşriyyat Komitəsi çavan müəlliflərin rus dilində buraxılmış ilk kitabları üçün böyük proletar ədibi M. Qorki adına mükafat təsis etmişdir. Bu mükafatın ilk qaliblərindən biri məhz həmyerlimiz Vaqif İbrahim olmuşdur. Bu mükafata o, yuxarıda adını çəkdiyimiz "Fəsillər" kitabına görə layiq görülmüşdür.

Vaqif İbrahimin əsərlərində nə xoşuma gəlir? Hər şeydən əvvəl, günün hadisələri ilə yaşamaq, həyata fəal müdaxilə hissi. O gördüklərinə, rast gəldiklərinə kənardan seyrçi kimi baxmır. Ətrafında cərəyan edən hadisələrin burulğanına girməyə, onları duymağa, başa düşməyə, ürəyinin süzgəcindən keçirməyə çalışır.

Müasirliyə meyl ədəbiyyatın əsas magistral yoludur. Lakin günün hadisələrini sənətin bədii dilinə çevirmək o qədər də asan iş deyildir. Müasirliyin əsas məğzini, günün hadisələrində tez keçib-gedənləri deyil, bəşəri, ömrü çox olan məsələləri qələmə almaq meyli Vaqif İbrahimi Şamxor SES-ə, Tümen vilayətinin kəşf olunan təzə neft yataqlarına, SSRİ-nin nəhəng zavodlarından birinə-"Uralmaşa", əsərin ən böyük tikintisi BAM-a gətirib çıxarmışdır. Həmin səfərlərin nəticəsində müəllif müasirlərimiz haqqında şeirlər, poema və xeyli publisistik əsər-yol qeydləri yazmışdır. Məhz həmin qeydlərin məhsulu olan "Baykal-Amur magistralında" adlı kitabı üçün o, respublika Lenin komsomolu mükafatı laureatı adına layiq görülmüşdür.

Vaqif İbrahimin şeirlərindəki əsas mövzulardan biri vətənpərvərlik motivlərdir. Bizcə, bu onun, yuxarıda qeyd etdiyimiz kimi, müasirliyə olan meylindən irəli gəlir. Çünki vətən mövzusu əbədi, əzəli, həmişəmüasir və bütün şairlərin müraciət etdiyi bir mövzudur. Vaqif İbrahim belə çətin mövzuda öz sözünü deyə bilir. Fikrimizi sübut üçün misallara müraciət edək. Müəllif "Vətənin qəlbin döyündürürük" şeirində yazır:

Biz onun ehtiyat saf qanı idik,
Doğulduq, vurulduq damarlarına.

və ya "Vətəndaş olmalı" şeirində onun Vətənə

Pasportda vətəndaş olmağa nə var,
Əsl vətəndaşın olmaq çətindir.

Vaqif İbrahimin qısa şeirləri isə xüsusilə xoşuma gəlir. Müəllifin bu şeirləri onu göstərir ki, o, az sözlə çox şey demək iqtidarına malikdir.

Gülləsi bir quşa dəyibdir bu gün,
Utanıb, bir küncə qısılıb tüfəng.
Sanki işlətdiyi günahlar üçün
O dar boğazından asılıb tüfəng.

Belə misalların sayını artırmaq da olar. Şairlik ilk növbədə söz ilə işləməkdir. Yəni böyük Füzulinin dili ilə desək, "yoxdan var" yaratmaqdır. Şairin ən böyük silahı da, necə deyərlər, "tikinti materialı" da , döyüş meydanı da, arxalandığı da, ümidi də, inamı da, istedadı da sözdədir. Bu çətin, şərəfli yolda qələm dostuma yeni müvəffəqiyyətlər arzulayıram.

Cabir Novruz,
Xalq şairi

Ürəyinin şirəsini şeirlərinə qatan şair

Payız da, yarpaq tökümü də, diriliyin dalınca gələn ölüm də təbii hadisədir. Ancaq yazın oğlan çağında, yayın ortasında xəzanın yada düşmədiyi bir vaxtda saralıb budaqdan qopan tək-tək yarpaqlar ürək göynədər. Çünki onların öz səfindən ayrılıb getməsi vaxtı çatmamış ayrılıqdır, gözlənilməz bir fəlakətin, vaxtsız tufanın sonucudur...

Bizim nəslin də saralıb tökülən çağı yetişib, tək-tək gedirik və gedəcəyik. Ədəbiyyət qanunlarına uyğun bir şəkildə. Ancaq bu "qanunu" pozaraq, payızı – öz bəh-bəhli çağını gözləmədən, yolun yarısında ailəsini, dostlarını, oxucularını tərk edərək gedənlər adamı daha çox yandırır.

Gənclik dostumuz, ötən əsrin 70-80-ci illərində ədəbi mətbuatda ən çox görünən imzalardan biri, istedadlı şair və publisist Vaqif İbrahim də qəfildən, ilhamının zirvələrə qanadlanan, ümidlə, istəklə, yaradıcılıq enerjisiylə, iş görmək həvəsiylə dolu olduğu bir vaxtda bizləri tərk etdi. Zahirən sakit, utancaq, təvəzökar bir adam olan Vaqifin ürəyi doluydu. Tükənməz enerjisi, gəzmək, görmək, yazmaq həvəsi vardı. Buna görə də ayağı yollardaydı.Keçmiş SSRİ məkanındakı ədəbi hərakata hamımızdan əvvəl qoşulmuşdu. Başqa respublikalarla sıx əlaqələri vardı, şeirləri çox erkən vaxtlardan başqa dillərə tərcümə edilirdi. Vaqif İbrahimlə demək olar ki, eyni vaxtdan çap olunmuşuq. İlk kitablarımızın çapı təxminən 1971-ci ilə təsadüf edirdi. Onun "Ömür balladası" mənimsə "Tanımaq istəsən" kitablarımız eyni vaxtda oxucuların ixtiyarına verilmişdi. Bundan sonra digər kitablarımız da demək olar ki, paralel çap olunurdu. Mən onu müəyyən mənada həm də çox istedadlı şairimiz Əli Kərimlə müqaisə etmək istərdim. Və təsadüfi deyil ki, o, Sumqayıtda Əli Kərim adına Poeziya klubu yaratmışdı. Onun yaratdığı ədəbi klubun yetirmələri arasında indi Azərbaycanda tanınmış yazarlar var.

Şeirlərinin sakit, amma tutumlu ifadə tərzində də bir az Əli Kərimin üslubu var idi. Məsələn, elə bu kitabındakı şeirlərin bəziləri kimi. Mən indi həmin şeirləri bir-bir sadalamaq istəməzdim. Çünki siz bu kitabı vərəqləyib, Vaqifin yaradıcılığı ilə bir daha yaxından tanış olacaqsınız. Vaqif təkcə ömrünü yox, həm də ürəyinin şirəsini bu şeirlərə qatırdı. Vaqifin yaradıcılığında ictimai cəsarət hissi yüksək idi.Kimin haqqında, nəyin haqqında yazırdısa ictimai tərbiyə əhəmiyyəti daşıyırdı. Şeirlərində vətən qeyrəti, ictimai qayğılar həmişə öz yerini tapırdı.

Təəssüf olsun ki, Vaqif İbrahimin kitabları indiyədək latın qrafikası ilə çap olunmayıb. Sevinirəm ki, nəhayət Vaqifin də şeirləri latın qrafikası ilə çap olunur. Buna görə, kitabın maddi məsrəflərini öz üzərinə götürmüş Yardımlı Xeyriyyə Cəmiyyətinə təşəkkür edirəm. Əslində onun kitablarının hər biri çoxdan latın qrafikasına çevrilməliydi. Çünki bu, Vaqifin haqqıdır və onun Sumqayıt ədəbi mühitinin formalaşmasında xüsusi xidmətləri olmuşdur.Düzdür, bu gün Sumqayıtda Vaqifin adını daşıyan orta məktəb fəaliyyət göstərir, amma ədəbi irsinin tədqiq və təbliğ olunması onun xidmətlərinə və adına layıq bir səviyyədə deyil. Təəssqüf ki, bu Vaqif İbrahimin latın qrafikasında ilk kitabı olacaq.

Onu da deyim ki, Vaqif dünyadan vaxtsız köçməsəydi, bu gün yaşı altmışı haqlamış ədəbi mühitin içində ən görkəmli nümayəndələrindən biri olacaqdı. Yəqin ki, onun şeirləri xarici dillərə tərcümə edilməkdə davam edəcəkdi. Onun müxtəlif xalqlardan çoxlu şair dostları var idi. Bununla onu demək istəyirəm ki, Vaqifin simasında biz şeirimizin Azərbaycan ədəbiyyatına şöhrət gətirə biləcək bir yolunu, bir nümayəndəsini, bir şəxsiyyətini itirdik. O, bizim ədəbiyyatımıza bir qeyrətli kişi kimi gəlmişdi. İnanıram ki, şeirləri onu elə olduğu kimi də yaşadacaqdır.

Sabir Rüstəmxanlı,
Xalq şairi

Vaqif İbrahimin əsərləri

Dedim bu dünyada bir iş görməmiş,
Vəsiyyət etmək də axı çətindir.
Həyatda gördüyün hər müqəddəs iş.
Bil ki, insanlara vəsiyyətindir.

Kitablar

1970

1. Ömür balladası: şeirlər / Vaqif İbrahim; red. F. Sadıq; bədii red. Y. Ağayev.- Bakı: Gənclik,1970.- 30 s.

Kitaba müəllifin ilk şeirləri daxil olunmuşdur.

Kitabın içindəkilər: Ömür haqqında ballada; Mən bir balıqçıyam; Anamdan məktub; Gəlin köçürürəm; Elegiya; Küçəmizin adı; Adiliklər önündə; Getdin; Sənsiz qəribsəmişəm; Qız həyası; Makinaçı; Mənə elə gəlir; Sən yaşayarsan; Əsir düşmüş qız; Praqa yollarında; Əlvida Praqa.

1974

2. Dünyanın keşiyində: şeirlər və poemalar / Vaqif İbrahim; red. və ön sözün müəl. B. Vahabzadə; bədii red. S. Şatikov.- Bakı: Gənclik , 1974.- 86 s.

Oxuculara təqdim olunan bu kitab şairirn ikinci kitabıdır. Kitaba müəllifin müxtəlif illərdə yazdığı şeirlər və iki poeması daxil edilmişdir.

Kitabın içindəkilər: İnam (Bəxtiyar Vahabzadə); Dünyanın keşiyində; Lenin; Dünyanın keşiyində; Mənim sevgim; Maraq; Radio dalğalarında; İçərişəhər; Dənizdə səhər; Qağayı; 13-lər; Barmaqlar çırpınanda; Əli Kərimə; Analar; Uşaq ikən; Subaylıq; Acıqlıyam küləyə; Qocaların görüşü; Əsa. **Ovcumdan günəş doğur:** Sumqayıt; Ovcumdan günəş doğur; Polad əridirəm; İşıq dirəyi; Mətbəə işçiləri; Bənnanın dedikləri; Bir kənd gecəsi; İki fəsil haqqında söz; Baharda; Yaz gecəsi; Gəncliyini axtarır; Ağac; Qəlbində; Mənə elə gəlir; Hər şerim; Bir anlıq çevrilib; Bir ümidlə; Nə biləydim; Həsrətin; Gözləyirəm; Çətin olar; Tanış səs; Bir az oxşarlığı var; Bir gecənin həsrəti; Naməlum əsgər; Səni tapanda; Novosibirsk; 3 saat irəli; Mənə deyirdilər ki; Varşava etüdləri. **Lirik poemalar:** Barmaqlarda yanan işıq; Ölməzlərin himni.

1975

3. Baykal-Amur magistralında: Yol təəssürütları / Vaqif İbrahim; red. Z. Sultanov; bədii red. S. Şatikov.- Bakı: Gənclik, 1975.- 93 s.

Gənc şair-jurnalist Vaqif İbrahim Baykal-Amur magistralında yaradıcılıq ezamiyyətində olmuşdur. Kitabda onun yol təəssüratı verilmişdir. Yəqin ki, bu, Baykal-Amur magistralında çalışan gənclərimizin işindən, dostluğundan, istirahətindən bəhs edən ilk kitab kimi oxucular üçün maraqlı olacaqdır.

1978

4. Zəfər günəşi: şeirlər / Vaqif İbrahim; red. M.Şükür.- Bakı: Azərnəşr, 1978.- 44 s.

1979

5. Bu torpaqda doğulanlar: şeirlər və poemalar / Vaqif İbrahim: red. Ç. Əlioğlu; bədii red. N. Rəhimov.- Bakı: Gənclik, 1979.- 125 s.

Bu kitaba müəllifin müxtəlif illərdə yazdığı şeirləri və Baykal-Amur poeması daxil olunmuşdur.

Kitabın içindəkilər: Vətən duyğuları; İstedad; Yer-eşidirsən?; Oğullar vətəni tərk eləyəndə; Şəhidlər; Adsız qəbir; Ağ günlü çöllərdə; Qabarlar əllərin ulduzlarıdır; Əllərin hərarəti; Şəki-doğma şəhərim; Xəzər; İçərişəhər; Dan söküləndə; Bu torpaqda doğulanlar; Bir kənd nağılı; Ucuzlaşdırılmış insanlar var; Yaşıdlarımız; Çəlik haqqında şeirlər; Hər şeirim; Tanı düşmənini, tanı dostunu; Şeirlərim; Makinada şer yazarkən; Əhməd Cəmilə; Əsl insan; Mənim imzam; Özümlə bacara bilməyəndə; Gəlirəm, həyat; Əbədiyyət; Qoca balıqçı; Uzaq-yaxın məsafələr; Bir gözəl və üç oğlan haqqında ballada; Hara fırlanırsan?; Teleqraf teli; İttiham; Halallıq; Telefonsuz dostuma; Eh, sizə nə deyim; Araq butulkası-əl qumbarası; Yaz yağışı; Qışda ağaclar; Torpaq və bulud; Çiçək; Qocaman ağac; Bahar gələndə; Yarpaqlar tumurcuq bələyindədir; Bənövşə; Dağlar dincəlir; Payızdan bir etüd; Külək və yarpaqlar; Qar lopaları; Çiyələk; Subaylıqdan sonra; İnanmıram; Bu donmuş vaxt qayığını; Yol ayırıcında; Adam baxmağa qıymır; Adımın aydınlığı içindəyəm; Nağıla dönəcək günlər; Əgər tapılmasa; Bir qız küsdürmüşəm; Barmaqlarımın harayı; Mən səni sevirdim; Etiraf; Bir cüt göz sevirəm; Açsam ürəyimi; Qapına gəlmişəm; Baxa bilmirəm; Baykal-Amur yolunda.

1981

6. Mehribanlıq işığı: şeirlər və poemalar / Vaqif İbrahim; red. C. Zeynal; bədii red. F. Əfəndiyev.- Bakı: Yazıçı, 1981.- 121 s. .

Kitabda həmçinin şairin ilk kiçik poeması da verilmişdir. Müharibəyə nifrət hissi ilə yazılmış "Öldürülmüş kənd" poemasında Çexoslovakiyanın Liditse kəndində faşistlərin törətdikləri cinayətlər təsvir olunub. "Ölümsüzlük" poeması isə böyük ispan şairi R. Q. Lorkanın xatirəsinə həsr olunub.

Kitabın içindəkilər: Şairin silahı sözdür (Cabir Novruz); Vətən çiçəkləri: Göz dəyər sənə; Vətən; O insan Lenin idi; Azərbaycan; Vətənin qəlbini döyündürürük; Dostluq; Saz; Həqiqət; İstəsəydi; Vaxtın qədrini bilək; Günəş, torpaq və insan; Açılmış hər qoza bir ulduz kimi; Əllərim çiçək açıb; Teleqrafçı qız; Mehribanlıq işığı; Cəsarətsiz şer; Vətənlikdən çıxar vətən; Qürbətdə; Ömür-bir yürüşdür; İki əlim-iki kotanım; Vətəndaş olmalı; Yardımlıda; Sumqayıt; Hər beşik bir kosmik gəmi; Dostlarsız uzaqdır yaxınlar belə. **Gördüklərim, duyduqlarım:** Məgər vəsiyyətə bizdə vaxtmı var; Yaşamaq eşqi; Yüz yerdən çatlamış qab kimidir dünya; Qoy torpaqdan doysun gözü; Divardan asılmış tüfəng; Şair qələmi; Ömrün qürub çağında; Xəbislər; Gecədən bir etud; Qızıl; Dünyaya bir oğul gətirdi ana; Rəqs edən gözəl; Masa arxasında; Yarımçıq qalan şeir; Qələm də bir fəhlədir; Qələm; Böyüklərin uşaqlığı, uşaqların böyüklüyü; Ana və körpə; Daha yaxından duyaq; Kədərli anlarım; Əbədi ömür; Dünən və bugün; Ümidlə yaşayanda; Özünə atılan güllə; Şampan şüşəsi və istedad; Qəfil sevinc, qəfil kədər; Doğum evinin astanasında düşüncələr; Sevgisiz, arzusuz ürək; Duyğu yarpaqları; Dörd fəsil; Bahar gəlməsəydi; Navalçalar ney kimi; Küləkli gündə; Şəki dörd fəsildə; Çoban tonqalı; Təbiət duyğuları; Qışda, yazda; Buz salxımları; Qarşıda yazdır; Hər budaq-bir beşik; Güllər məskəni; Maralgöl. **Qədrini bilməsəm:** Bu gün; Niyə görüşdürdü təsadüf bizi; İlk eşq-ilk ayrılıq; İçimdə bir kədər tumurcaqlayıb; Nə vaxt ki, qədrini bilməsəm sənin; Həsrətsovuranım, qəmsovuranım; Bilsəm ki; Soruşma; Unudanlar və unudulanlar; Əgər o sevgiyə qaytarsan məni; Kimsə ürəyimdən pozar eşqini; Buraxan deyiləm; Ömrün qurumuş budaqları; Mən səni itirəndə; Bəzən sevənlərdə yetim qalırlar; Bu yağışda; Başlasaq yenidən unudulmağa; Gün gələr; İlk sevgidən sonra; Qoca-əsir; Etiraf. **Poemalar:** Öldürülmüş kənd; Ölümsüzlük.

1982

7. Vaxtla üz-üzə: şeirlər / Vaqif İbrahim; red. M. Ələkbərli; bədii red. İ. Quliyev; rəs.N. Babayev.- Bakı: Gənclik, 1982.- 228 s.

Kitabda Vaqif İbrahimnin müxtəlif illərdə yazdığı şeir və poemaları toplanmışdır.

Kitabın içindəkilər: Vətənin qəlbini döyündürürük: Şerlərim; Gəlirəm, həyat; Göz dəyər sənə; Vətəndaş olmalı; İstedad; Ehtiyac; Məgər vəsiyyətə bizdə vaxtmı var; Lorka İspaniyanın Dərdölçəniydi; Böyük insan; Dostluq; Bu torpaqda doğulanlar; Oğullar Vətəni tərk eləyəndə; Bir gözəl və üç oğlan haqqında ballada; Vətənin qəlbini döyündürürük; Şəhidlər; Qardaşım əsgər gedir; Həqiqət; Doğum evinin astanasında düşüncələr; Qəfil sevinc, qəfil kədər; Nə vaxt ki; Qocaların ikinci görüşü; Yazın nəfəsi duyulur; Teleqraf teli; Günəşə doğru; İçərişəhər; Xalq da ağac kimidir; Yer-eşidirsən; Ömrün qürub çağında; Qağayı; Mənim böyük xalqım; Şəki-doğma şəhərim; Analar; Qoca balıqçı.**Yolayrıcında:** Cəsarətsiz şer; Xəbislər; Güzəşt edə-edə; Onüçlər; Xəstəlik də əsirlikdir; Bir yolayrıcıdır bura, sən demə; Çəlik haqqında şeirlər; Makinaçı; Ümidlə yaşayanda; Qızıl; Tanı düşmənini, tanı dostunu; Ən yaxşı qadın da uşaq kimidir; Bir kənd nağılı; Əslində özünü aldadırdı o; Ömür bu qədər qısa; Qız həyası; Fikirlər; 6 avqust 1945-ci il; İlhamın don tutsa; Ana və körpə; Şair qələmi; Addımların altda qaldı; Babəkin manoloqu; Əsa; Vaxtla üz-üzə; İstəsəydi; Böyüklərin uşaqlığı, uşaqların böyüklüyü; Kora, kara təsəlli; Eh sizə nə deyim; Araq şüşəsi və əl qumbarası; Sahildə ev; Özümlə bacara bilməyəndə; Nöqsanım varsa; Divardan asılmış tüfəng; Alışdıqca zəhmətə; Tanış səs; Subaylıqdan sonra; Sanırdı; Təbliğat bürosunda; Rüşvət də qumar kimidir; Şampan şüşəsi və istedad; Bir heybənin iki gözü; Yaşamaq eşqi; Dünən- bu gün; Hara fırlanırsan; Ay; İlk və son görüş; Milyonçu kombayn; Qoca-əsir; Yaşıdlar; Əli Kərimə; Dostlar yad olduqca; Ölülərin etirafı; Qürbətdə; Yaşıl ada; Karpat zirvəsi.**Yarpaqlar tumurcuq bələyindədir:** Dörd fəsil; Bahar gələndə; Yarpaqlar tumurcuq bələyindədir; Bahar gəlməsəydi; Yağışlı gündə; Bir ocağın hekayəti; Torpaq və bulud; Çiçək; Bənövşə; Günəş və otlar; Payızdan bir etud; Harda ağaclar yanar; Dağlar dincələr; Yarpaqlar tökülləndə; Payızda; Külək və yarpaqlar; Ağac; Təbiət duyğuları; Sarı yarpaq, sarı pişik; Hara uçduğunu bilməyir deyə; Qış; Qar lopaları; Qışda ağaclar. **Etiraf:** Qəlbində; Bu gün; İlk eşq-ilk ayrılıq; İnanmıram; Səni tapanda; Bir ovuc təbəssüm; Niyə görüşdürdü təsadüf

bizi; Bir qız küsdürmüşəm; Mən səni sevirdim; Ürəyim uşaq tək ardınca qaçır; Yolayrıcında; Nağıla dönəcək günlər; Əgər tapılmasa; Soruşma; Çətin olar; Qorxuram çatlaya şirinliyindən; Həsrətin; Tez gəl; Etiraf; Gün gələr; Kimsə ürəyimdən pozar eşqini; İçimdə bir kədər tumurcaqlayıb; Bilsəm ki; Ömrün qurumuş budaqları; Unudanlar, unudulanlar; Bəzən sevənlər də yetim qalırlar; Nə vaxt ki, qədrini bilməsəm sənin; Nə biləydim; İlahi, nə qədər gözəl olmuşam; Əgər o sevgiyə qaytarsan məni. **Poemalar:** Baykal-Amur yolunda; Osvensim çağırışı.

1985

8. Taleyimə yazılanlar: şeirlər / Vaqif İbrahim.- Bakı: Gənclik, 1985.- 188 s.

2009

9. Qəlbim torpaqda da döyünəcəkdir: şeirlər / Vaqif İbrahim; ön sözün müəl. S. Rüstəmxanlı.- Bakı: Qanun, 2009.- 112 s.

Bu kitab şair Vaqif İbrahimin latın qrafikalı Azərbaycan əlifbası ilə nəşr olunan ilk şeirlər kitabıdır. Kitab şairin "Ömür balladası" (1970), "Dünyanın keşiyində"(1974), "Bu torpaqda doğulanlar" (1979), "Mehribanlıq işığı" (1981), "Vaxtla üz-üzə"(1982) və ölümündən sonra nəşr olunmuş "Taleyimə yazılanlar" (1985) adlı şeir kitablarının əsasında tərtib olunmuşdur. Ə. Kərim adına Sumqayıt şəhər Poeziya klubu tərəfindən nəşrə hazırlanan bu kitab, Sumqayıt şəhərinin 60 illik yubileyinə töhfə olaraq Yardımlı Xeyriyyə Cəmiyyəti İctimai Birliyinin maliyyə vəsaiti hesabına çap olunub.

Kitabın içindəkilər: Ürəyinin şirəsini şeirlərnə qatan şair (Sabir Rüstəmxanlı); Şeirlərim; Vətəndaş olmalı; Şəhidlər; İstedad; Göz dəyər sənə; Ehtiyac; Məgər vəsiyyətə bizdə vaxtmı var; Lorka-İspaniyanın Dərdölçəniydi; Qocaların ikinci görüşü; Həqiqət; Qağayı; Çiçək; Şəki-Doğma şəhərim; Cəsarətsiz şeir; Qoca balıqçı; Xəbislər; Bir kənd nağılı; Ömür bu qədər qısa; Əsa; İstəsəydi; Sahildə ev; Subaylıqdan sonra; Yaşamaq eşqi; Dostlar yad olduqca; İçimdə bir kədər tumurcaqlayıb; Bilsəm ki; Ömrün qurumuş budaqları ; Unudanlar, unudulanlar; Bəzən sevənlərdə yetim qalırlar; Nə vaxt ki, qədrini bilməsəm sənin; İlahi, nə qədər gözəl olmuşam; Dan sökülləndə; Ucuzlaşdırılmış insanlar var; Yaşıdlarımız; Tanı düşmənini, tanı dostunu; Özümlə bacara bilməyəndə; Əbədiyyət; Hara fırlanırsan; Halallıq; Telefonsuz dostuma; Eh, sizə nə deyim; Torpaq və bulud; Yarpaqlar tumurcuq bələyindədir; Payızdan bir

etüd; Bu donmuş vaxt qayğını; Yol ayrıcında; Adam baxmağa qıymır; Yardımlıda; Sumqayıt; Rəqs edən gözəl; İlk sevgidən sonra; Təbiət duyğuları; Divardan asılmış tüfəng; Güllər məskəni; Niyə görüşdürdü təsadüf bizi; Soruşma; Əgər o sevgiyə qaytarsan məni; Buraxan deyiləm; Mən səni itirəndə; Qoca-əsir. **Poema:** Ölümsüzlük.

2015

10. Mən varam – 70: şeirlər / Vaqif İbrahim; tərt. ed. B.Ələkbərov; red. K. Abiyeva.- "Xan" nəşriyyatı, Bakı.- 2015.- 120 s.

Vaqif İbrahimin yaradıcılığında istənilən mövzu öz əksini tapır. 1983-cü ildə yol qəzasında dünyasını dəyişən Vaqif İbrahimin "Qəlbim bu torpaqda döyünəcəkdir" kitabından sonra "Mən varam" adlı şeirlər kitabı, latınca nəşr olunan ikinci kitabdır. Kitabda Vaqif İbrahimin rəhbərlik etdiyi birlik üzvlərinin xatirələri də yer alıb.

Kitabın içindəkilər: Şairin silahı sözdür (**Cabir Novruz)**; Nə deyirsiz; Azərbaycan; Şəki - doğma şəhərim; Vətənin qəlbini döyündürürük; Vaxtın qədrini bilən; Əllərim çiçək açıb; Divardan asılmış tüfəng; Sevgisiz, arzusuz ürək; Yüz yerdən çatlamış qab kimidir dünya; Böyüklərin uşaqlığı, uşaqların böyüklüyü; Niyə görüşdürdü təsadüf bizi; Ürəyinin şirəsini şeirlərinə qatan şair; **(Sabir Rüstəmxanlı)**; Buraxan deyiləm; Etiraf; Dostlarsız uşaqdır yaxınlar belə; Vaqif İbrahimin şeir akademiyası **(Paşa Qəlbinur)**; Yenə də poeziyanı sevdirir **(Məhərrəm Qasımlı)**; Cavabdehəm; Qəpiyə dəyməyən adamlar; Sənsiz darıxmışam; Ancaq bir adam var; Şirinliyindən çatlamış nar; Musiqi cücərər; Yalançı tüfəng; Həyat agacı; Taleyimə yazılanlar; Kirpi; İçərişəhər; İşıqfor adamlar; Kim deyir; Bonsay **(Hacı Firudin Qurbansoy)**; Ruhun var olsun, Vaqif **(Əbülfət Mədətoğlu)**; Günah etməməyi öyrət uşağa; Paxıllıq; Gəlməsən; Zəng etmək istəyirəm; Səni düşünürəm; Vaxt və məhəbbət; Gecəyə həsrətin çöküb; Nə vaxtsa biz sevilmişik; Mənim tanıdığım Vaqif İbrahim (**Flora Xəlilzadə)**; Çıxıb şirinliyin göz yaşlarıma; Yaşamaq eşqi; Qızıl; Göz dəyər sənə; Bu gün; Güman yerimiz idi (**Maşallah Məftun);** Qışda, yazda; Bahar gəlməsəydi; Qarşımda ağ vərəq, ağ bayraq kimi; Qəlbim də neytral torpaq kimidir; Təbiət duyğuları; Məgər vəsiyyətə bisdə vaxtmı var; Nə qədər ki, mən varam; Nədənsə (**Əyyub Qiyas)**; Balalar üçün; Bələdçi – Poema; Vaqif İbrahimin ədəbi gəncliyi **(Qiyas Həmid)**; Tale kələfi **(Qardaşxan Əzizxanlı)**; Çağırtı **(Əhməd Əsgər);** Vaqif İbrahimə (**Kamalə Abiyeva);** Vaqif İbrahimi unutmamışam **(Paşa Əlioğlu)**; Bitib – tükənməyən şair ömrü (**Sədaqət Davudqızı**).

Kitablarda və məcmuələrdə çıxan əsərlər

1967

11. Mən fəhləyəm; Niyə borclu oldum: şeirlər / Vaqif İbrahim.- Gənc qələmlər.- Bakı: "Gənclik", 1967.- S. 35-36.

1976

12. Novosibirsk: şeir / Vaqif İbrahim.- Günəşli günlərin nəğmələri.- Bakı: "Gənclik", 1976.- S. 90-91.

1977

13. Naməlum əsgər: şeir / Vaqif İbrahim.- Dünya durduqca.- Bakı: Azərnəşr, 1977. - S. 40 - 41.

1978

14. Biz vətənin işığıyıq; Şeirlərim: şeirlər / Vaqif İbrahim.- Sevdiyim şeirlər. C. 2.- Bakı: 1978.- S.180-181.

1979

15. Şəkidə bir qız var: şeir / Vaqif İbrahim.- Səadətin ünvanı.- Bakı: "Yazıçı", 1979.- S. 50-62.

1980

16. İlk məşəl: şeir / Vaqif İbrahim.- Ölkəm.- Bakı: Yazıçı, 1980.- S. 185-186.

1981

17. İstəsəydi; Lorka İspaniyanın dərd ölçəniydi: şeirlər / Vaqif İbrahim.- Azərbaycan Poeziya almanaxı 1.- Bakı: Yazıçı, 1981.- S. 75 - 77.

1984

18. Həqiqət: şeir / Vaqif İbrahim.- Azərbaycan poeziya almanaxı 2.- Bakı: "Yazıçı", 1984.- S.73-74.

2004

19. Analar: şeir / Vaqif İbrahim.- Vətənim, anam, dilim: Almanax.- Sumqayıt : "Zərdabi", 2004.- S.186.

2006

20. Analar: Ana və körpə: şeirlər / Vaqif İbrahim.- Ana! Ana! Ana!: Antologiya.- Bakı: "Nurlan", 2006.- S.67-68.

21.Uçan bantlar; Qarpız: şeirlər / Vaqif İbrahim.- Yusifoğlu Rafiq. Uşaq ədəbiyyatı.- Bakı: "Şirvan", 2006.- S. 208

2007

22. Maraq; İçərişəhər; Önüclər; Barmaqlar çırpınanda; Əli Kərimə; Qocaların görüşü; Sumqayıt; Tanış səs; Böyük insan; Bir gözəl və üç oğlan haqqında ballada; Şəhidlər; Yazın nəfəsi duyulur; Günəşə doğru; Qağayı; Qoca balıqçı; Ümidlə yaşayanda; Sahildə ev: şeirlər / Vaqif İbrahim.- Bizdən sizə qalan sözdü. 3.- Bakı: "Adiloğlu", 2007.- S. 3-21.

2009

23.Sumqayıt: şeirlər / Vaqif İbrahim.- Həzin nəğmələrdə yaşayan şəhər. Poeziya almanaxı.- Sumqayıt: 2009.- S. 21-23.

24. Qəlbim torpaqda da döyünəcəkdir: şeirlər / Vaqif İbrahim.- Bakı: Qanun, 2009.- 112 s.

Dövri mətbuatda dərc olunmuş əsərləri

1970

25. Qoca əsir: şeir / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1970.- № 8.- 15 avqust.- S.7.

1971

26. Dənizlə səhər; Adsız şeir: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- № 7.- 10 iyul.- S. 4.

1972

27. Subaylıq: şeir / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət.- № 7.- 15 iyul.- 1972.- S.14.

1973

28. Bir dostum vardı: şeir / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət. - 1973.- № 12.- 22 dekabr.- S. 7.

29. Meşədə: şeir / Vaqif İbrahim // Ədəniyyat və incəsənət.- 1973.- № 11.- 7 noyabr.- S.13.

1974

30. Ölməzlərin himni: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1974.- № 7.- 22 iyul.- S.5.

31. BAM cəzb edir, çağırır: şeir / Vaqif İbrahim // Azərbaycan gəncləri.- 1974.- № 12.- 12 dekabr.

1975

32. Baykal-Amur yolunda / Vaqif İbrahim // Azərbaycan gəncləri.- 1975.- 25, 27, 29 noyabr; 2, 4 dekabr.

33. BAM – Gənclik tikintisidir: şeir / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət.- 1975.- № 6.- 8 iyun.

34. Qabarlar əllərin ulduzlarıdır: şeir / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət.- 1975.- № 3.- 15 mart.- S. 7.

35. Yollar səsləyir: BAM haqqında təəssüratlar / Vaqif İbrahim // Ulduz.- 1975.- № 1.- Yanvar.- S. 32-39.

1976

36. Bu torpaqda doğulanlar; Rəqs edən gözəl; Şeirlərim: şeirlər / Vaqif İbrahim // Ulduz.- 1976.- № 4.- Aprel.- S. 20-21.

37. İstedad; Özümlə bacara bilməyəndə: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət.- 1976.- № 6.- 24 iyul.- S. 6.

1977

38. Ağ güllü çöllərdə: Əllərin hərarəti: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1977.- № 9.- 10 sentyabr.- S. 2.

39. Ağ güllü çöllərdə: şeir / Vaqif İbrahim // Azərbaycan gəncləri. - 1977.- № 9.- 17 sentyabr.

40. Baykal- Amur yolunda: Poemadan parçalar / Vaqif İbrahim // Azərbaycan.- 1977.- № 9.- Sentyabr. - S. 57-63.

41. Oğullar vətəni tərk eyləyəndə; Teleqraf teli; Etiraf: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1977.- № 6.- 25 iyun.- S. 5.

42. Yaz yağışı: şeir / Vaqif İbrahim // Azərbaycan gəncləri.- 1977.- № 3.- 31 mart.

1978

43. Bənövşə: şeir / Vaqif İbrahim // Azərbaycan.- 1978.- № 10.- oktyabr.- S. 36.

44. Tayqaya nur çilənir: şeir / Vaqif İbrahim // Bakı.- 1978.- № 4.- 5 aprel.

45. Şəki doğma şəhərim; Tanı düsmənini, tanı dostunu; Payızdan bir etüd: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət.- 1978.- № 2.- 25 fevral.- S.4.

1979

46. Əhməd Cəmilə; Divardan asılmış tüfəng; Bir gözəl və üç oğlan haqqında ballada: şeirlər / Vaqi İbrahim // Ədəbıyyat və İncəsənət.- 1979.- № 6.- iyun; 10 fevral.- S. 4.

47. Köhnə Bakı; Əllərin çiçək açıb; Vaxt haqqında; Azərbaycan: şeirlər /Vaqif İbrahim // Bakı.- 1979.- № 5.- 16 may.

48. Qocaman ağac; İnsan tayqada; Qoca balıqçı; Yarpaqlar tumurcuq bələyindədir; Həqiqət: şeirlər / Vaqif İbrahim // Azərbaycan.- 1979.- № 6.- S. 72-74.

49. Tayqanın işıqları: şeir / Vaqif İbrahim // Azərbaycan gəncləri.- 1979.- № 6.- 23 iyun.

50. Yaşamaq eşqi; Vətənin qəlbini döyündürürük; Çəlik haqqında: şeirlər / Vaqif İbrahim // Ulduz.- 1979.- № 3.- Mart.- S. 28-29.

1980

51. Böyük insan: Ömrün qürub çağında; Dələ: Cəsarətsiz şeir: şeirlər / Vaqif İbrahim // Azərbaycan.- 1980.- № 6.- S. 58-60.

52. Əgər o sevgiyə qaytarsan məni: şeir / Vaqif İbrahim // Azərbaycan gəncləri.- 1980.- № 8.- 2 avqust.

53. İlk məşəl; Ölkəm: şeirlər və hekayələr / Vaqif İbrahim // Bakı.- 1980.- S. 185-186.

54. İşıqfor adamlar: şeir / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1980.- № 7.- 25 iyul.- S. 8.

55. Qoy torpaqdan doysun gözü; Vaxtla üz-üzə; Gəlməsən; İlk eşq-ilk ayrılıq: şeirlər / Vaqif İbrahim // Ulduz.- 1980.- № 6.- İyun.- S. 45-46.

56. Xəzər çiçəkləri; Hər beşik bir kosmik gəmi; Teleqrafçı qız; Dostlarsız uzaqdır yaxınlar belə: şeirlər / Vaqif İbrahim // Bakı.- 1980.- № 8.- 13 avqust.

1981

57. Etiraf; Həqiqət: şeirlər / Vaqif İbrahim // Azərbaycan gəncləri.- 1981.- № 11.- 21 noyabr.

58. İlhamın don tutsa; Xəbislər; Böyüklərin uşaqlığı; Uşaqların böyüklüyü; Kimsə ürəyimdən pozar eşqini: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1981.- № 5.- 29 may.- S. 4.

59. Qələmdə bir fəhlədir; Arzulara doğru; Ümüdlə yaşayanda: şeirlər / Vaqif İbrahim // Azərbaycan.- 1981.- № 7.- İyul.- S. 106-108.

60. Mənim şəhərim: şeir / Vaqif İbrahim // Sosialist Sumqayıtı.- 1981.- № 2.- 14 fevral.

61. Unudanlar–unudanlar; Həsrətsovuranım; Niyə görüşdürdü təsadüf bizi: şeirlər / Vaqif İbrahim // Azərbaycan müəllimi.- 1981.- № 4.- 8 aprel.

62. Şəki dörd fəsildə; Dağ kəndi qışda; Qarın uşaqlığı, cavanlığı qocalığı; Maralgöl bir heybənin iki gözü; Bulağın nə günahı; Kömür; Qələm; şeirlər / Vaqif İbrahim // Pioner 1981.- № 11.- Noyabr.- S.12-13

63. Vətən; Nə qədər ki, mən varam; Bir külfətin çörəyi; İşıqçının nəğməsi: şeirlər / Vaqif İbrahim // Bakı.- 1981.- № 5.- 7 may.

64. Vətəndaş olmalı; Ömrün qurumuş budaqları; Şair qələmi: şeirlər / Vaqif İbrahim // Ulduz.- 1981.-№ 3.- S.1-2.

1982

65. Amerika siyasəti: şeir / Vaqif İbrahim // Bakı.- 1982.- № 7.- 13 iyul.

66. Cazibə qüvvəsi; Ömür bir yürüşdür; Mehribanlıq işığı; Nöqsanım varsa; Qaynaqçı çubuğu: şeirlər / Vaqif İbrahim // Bakı.- 1982.- № 1.- 22 yanvar.

67. Əleyhqaz düzəldəcəyəm; Alətdir dostlar əlində; Şirinliyindən çatlamış nar; Həqiqət; Atmasin günlərin pəncərəsindən: şeirlər / Vaqif İbrahim // Azərbaycan.- 1982.- № 10.- oktyabr.- S.117-121.

68. Qardaşım əsgər gedir; Kirpi; Ehtiyac: şeirlər / Vaqif İbrahim // Azərbaycan pioneri. - 1982.- № 3.- 5 mart.

69. Qəpiyə dəyməyən adamlar; Ən yaxşı qadın da uşaq kimidir; Bir yolayrıcıdır bura sən demə; Bir ocağın hekayəti: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1982.- № 2.- 5 fevral.- S. 4.

70. Qəpiyə dəyməyən adamlar; Əşyadır, alətdir dostlar əlində: şeirlər / Vaqif İbrahim // Sosialist Sumqayıtı.- 1982.- № 1.- 16 yanvar.

71. Palıdlar şimşəyi çəkir özünə; Ədalət–"Avrora" kreyseridir; Bir zaman məni də bir qız sevərdi; Yoxsa istedadın: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1982.- № 33.- 13 avqust.- S.4

72. Şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət.- 1982.- № 8.- 13 avqust.- S. 4.

1983

73. Anam öpdü, sağaldı: şeir / Vaqif İbrahim // Azərbaycan gəncləri.- 1983.- № 2.- 19 fevral.

74. Bilməz idik, duymaz idik: şeir / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1983.- № 12.- 9 dekabr.

75. Bir quyunun hekayəti: şeir / Vaqif İbrahim // Azərbaycan müəllimi.- 1983.- № 3.- 2 mart.

76. Ətir saçır gül niyə?; Qarışqa və yarpaq qayıq; Çaydan; Sual-cavab: şeirlər / Vaqif İbrahim // Pioner.- 1983.- № 1.- Yanvar.- S. 7.

78. Hardasan?; Özüm də bilmirəm nə cavab verim: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət.- 1983.- 10 iyun.- S.4.

79. Günah etməməyi öyrət uşağa; Paxıllıq; Sən evdən getdin: şeirlər / Vaqif İbrahim // Azərbaycan qadını.- 1983.- № 4.- aprel.- S. 6.

80. İmzalar da ulduzlar kimidir: Sumqayıt ədəbi birliyinin fəaliyyəti haqqında / Vaqif İbrahim // Azərbaycan gəncləri.- 1983.- № 1.- 27 yanvar .

81. Mənim ömür yolum bir sap deyil ki; Üstündən adlama böyüyə bilməz; Çatlamış qayıq və ürək; Dondura bilmir; Son və ilk zəng: şeirlər / Vaqif İbrahim // Ulduz.- 1983.- № 6.- iyun.- S. 36-37.

82. Məni o yandırır: şeir / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət.- 1983.- № 4.- 15 aprel.- S.8.

1984

83. İsmin altı halında: şeir / Vaqif İbrahim // Ədəbiyyat və İncəsənət.- 1984.- № 27.- 6 iyul.- S.8.

84. Vətənin sərhədləri; Mənim ana dilim; Könlünü oxşayıb alanın mənəm; Üzük bağlayıbdır o, sap yerinə; Sabahkı ayrılıq; Təsəlli gəzirəm; Qarşımda ağ vərəq: şeirlər / Vaqif İbrahim // Azərbaycan.- 1984.- № 1.- yanvar.- S.151-154.

85. Yer məhəbbəti: poemadan parçalar / Vaqif İbrahim // Azərbaycan.- 1984.- № 8.- avqust.- S. 80-88.

2009

86. İlk ayrılıq; Niyə görüşdürdü təsadüf bizi: şeirlər / Vaqif İbrahim // Ədəbiyyat qəzeti.- 2009.- № 10.- 23 oktyabr.- S. 6.

Müsahibələri

87. Makrovski, V. BAM-Gənclik tikintisidir: BAM yol tikinti idarəsinin rəisi Makrovski ilə müsahibə / Müsahibəni apardı Vaqif İbrahim // Ədəbiyyat və incəsənət. - 1975.- 28 iyun.- S.1,8-9.

88. Novruzov, M. Görürəm: Sumqayıt şəhər göz xəstəlikləri xəstəxanasının baş həkimi Məhərrəm Novruzovla müsahibə / Müsahibəni apardı Vaqif İbrahim // Ulduz.- 1976.- N 7.- iyul.- S. 44-47.

Redaktə etdiyi, ön söz yazdığı, tərtib etdiyi əsərlər

1981

89. Azərbaycan: Poeziya almanaxı 1: şeirlər, xatirələr / tərt. ed. Ağasəfa; Vaqif İbrahim.- Bakı: "Yazıçı", 1981.- 303 s.

1982

90. Bahar çiçəkləri: / tərt. ed., ön söz müəl. V. İbrahim.- Bakı : "Gənclik" , 1982.- 200 s.

Kitabın içindəkilər: Bu kitabda siz imzaları az tanınan şair və yazıçılarla tanış olacaqsınız.

1983

91. Yaşıl budaqlar: şeirlər və hekayələr toplusu / Tərt. ed. və ön söz müəl. Vaqif İbrahim.- Bakı: "Gənclik", 1983.- S. 200.

Kitabın içindəkilər: Kitabda Gənc Yazıçıların Respublika Ədəbi Birliyi və onun yaradıcılıq studiyası üzvlərinin şeir və hekayələri toplanmışdır.

Tərcümələri

1981

92. Qettuyev, M. Dost; Şeirin işığı; Bakı qızları: şeirlər / M. Qettuyev; tərc. ed. Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1981.- 9 yanvar.- S. 3.

Ədəbi tənqidi qeydləri, məqalələri, oçerkləri

Dövri mətbuatda

1974

93. BAM cəzb edir, çağırır / Vaqif İbrahim // Azərbaycan gəncləri, 1974.- 12 dekabr.

1975

94. BAM-gənclik tikintisidir / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1975.- 28 iyun.

95. Yaşıdlar arasında: Müəllifin gənc yazıçıların VI Ümumittifaq müşavirəsi ilə bağlı xatirələri / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1975.- 26 aprel.- S. 7.

1976

96. Vaxtında gəlmişik bu dünyaya biz: Şair Əhməd Cəmilin poeziyası haqqında / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1976.- 9 oktyabr.- S. 5.

1978

97. BAM–rənglərin poeziyasında / Vaqif İbrahim // Ədəbiyyat və incəsənət.- 1978.- 15 aprel.- S. 5.

98. Tayqaya nur çilənir / Vaqif İbrahim // Bakı, 1978.- 5, 6, 7 aprel.

1979

99. Tayqanın işıqları / Vaqif İbrahim // Azərbaycan gəncləri, 1979.- 23 iyun.

100. Rəsul Rza və Əli Kərim doğmalığı: Müəllifin şair R. Rza və Ə. Kərimlə bağlı xatirələri, həmçinin R. Rza və Ə. Kərim arasında olan dostluq münasibətləri haqqında / Vaqif İbrahim // Ulduz.- 1981.- № 7.- iyul.- S.59-64.

Vaqif İbrahim haqqında

Kitablarda

1983

101. Seyidov, Y. Hər söz arxasınca uçan quşam: Şair Vaqif İbrahim yaradıcılığında söz və dil haqqında fikirlər / Yusif Seyidov. Sözün qüdrəti.- Bakı : Yazıçı, 1983.- S. 278-279.

1987

102. İbrahim, V. 1945-1983: Haqqında məlumat / Azərbaycan Sovet yazıçıları.- Bakı: "Yazıçı", 1987.- S. 91-92.

1992

103. Qiyas, H. Vaqif İbrahim nisgili / Həmid Qiyas. Sahilsiz dəniz.- Bakı: "Adiloğlu" , 1992.- S.30.

1999

104. Hacıyeva, A. Həyatda gördüyün hər müqəddəs iş: Şair Vaqif İbrahim haqqında / Aygün Hacıyeva. Eyruz Məmmədov. Sumqayıtım mənim.- Sumqayıt: "Sumqayıt", 1999.- S.357-360.

2002

105. Mansurzadə, A. Ürəyim dostlarsız açılır çətin: Şair Vaqif İbrahim haqqında xatirələr / Ağəddin Mansurzadə. Ədəbi portretlər.- "Sumqayıt", 2002.- S.78-85.

2004

106. İbrahim, V. 1945-1983: Həyatı haqqında / Teymur Əhmədov. XX əsr Azərbaycan yazıçıları. Ensiklopedik məlumat kitabı.- Bakı: "Nurlar", 2004.- S.899.

2006

107. Yusifoğlu, R. Vaqif İbrahim yaradıcılığında uşaq mövzusu / Rafiq Yusifoğlu. Uşaq ədəbiyyatı.- Bakı: "Şirvan", 2006.- S. 206-208.

2011

108. Məmmədov, E. Səhv etmək insanın xarakterik cəhətidir: Müəllifin şair Vaqif İbrahim, yazıçı, publisist Feyzi Mustafayev və şair Əşrəf Şəfiyevlə bağlı xatirələri haqqında / Eyruz Məmmədov.-Əşrəf Veysəlli. Dağlar sizdə nəyim qaldı.- Sumqayıt: "Dərələyəz - M", 2011.- S. 249-258.

109. Veysəlli, Ə. Xatirələrdən boylanan Vaqif: Şair Vaqif İbrahimin "Taleyimə yazılanlar" kitabı haqqında / Əşrəf Veysəlli. Dağlar, sizdə nəyim qaldı.- Sumqayıt: Dərələyəz - M, 2011.- S. 145-153.

110. Veysəlli , Ə. Unudulmayan Vaqif İbrahim: F. Mustafayevin şair V. İbrahimə həsr etdiyi "Ölənlər evə qayıdırlar" kitabına əlavə / Əşrəf Veysəlli. Dağlar sizdə nəyim qaldı.- Sumqayıt: Dərələyəz - M, 2011.- S.154-159.

2019

111. Yusifli, V. Vaqif İbrahim: həyat və yaradıcılığı haqqında / Vaqif Yusifli. Sumqayıtda ədəbi həyat.- Bakı.- CBS-PP, 2019.- S. 41- 47.

Dövri mətbuatda

1975

112. Mustafayev, F. BAM-ın poetik rəngləri: [Vaqif İbrahimin "Baykal-Amur magistralında" (Bakı: Gənclik, 1975) adlı kitabı haqqında resenziya] / Feyzi Mustafayev // Sosialist Sumqayıtı.- 1982.- 4 fevral.

1976

